**SOSİOLOJİ TƏDQİQATLAR MƏRKƏZİ**

**A N A L İ T İ K   H E S A B A T**

# Müasir Azərbaycanda erkən nikahlar: Sosioloji təhlil

**Müəllif:**
**Rəcəb Səttarov**

**Bakı - 2021**

# I. GİRİŞ

## *Ümumi məlumat*

Məlum olduğu kimi, sovetəqədərki dövr evlənmək üçün iki yolla nikah əlaqələrinə girmək mümkün idi: razılıq əsasında bağlanan nikahlar və qızların qaçırılması yolu ilə bağlanan nikahlar. Birinci nikah, adətən, danışıq aparmaq, sövdələşmək yolu ilə başa çatırdı. Adətən qızlar 14-18 yaşlarında ərə verilir, oğlanlar isə 18-22 yaşlarında evlənirdilər.

Qızqaçırıma adətinin iki cəhəti vardır. Bunlardan biri, qızların könüllülüyü əsasında qaçırtma, digəri isə əsl mənada zorakılıqla qaçırtmadır. Birinci qaydaya "qoşulub qaçma" da deyilir. Nikaha girmək məqsədilə qızların qaçırılmasının başlıca səbəblərindən biri bu idi ki, əksər hallarda tərəflərdən biri, çox vaxt qızın valideynləri by və ya digər səbəb üzündən gənclərin ailə qurmasına razılıq vermirdi. Ona görə də qarşılıqlı məhəbbətə əsaslanan ailə yaratmaq üçün yeganə yol qızın razılığı ilə onun qaçırılması idi. Razılıq əsasında qızın qaçırılmasının ikinci səbəbi maddi şəraitdən irəli gəlirdi. Həddindən artıq toy xərci çəkməyə imkanı olmayan oğlan qızı qaçırmağa məcbur olurdu. Bəzən oğlan qızı zorakılıqla qaçırdırdı. Zorakılıqla qızqaçırma zamanı nəinki müqabil tərəfin valideynlərinin, hətta qızın özünün razı olub-olmamasına belə əhəmiyyət verilmirdi.

Öz növbəsində bir çox çatışmazlıqlara baxmayaraq, sovet dövrü bütövlükdə Azərbaycan qadınının müəyyən emansipasiyasına, yüksək savadlılıq səviyyəsinə və sosial fəallığına imkan yaradırdı. Qadının müsəlman cəmiyyətində vəziyyəti və rolunu xarakterizə edən hicab geyinmək, kütləvi savadsızlıq, qadınların cəmiyyətin ictimai-siyasi və iqtisadi həyatından izolyasiya edilməsi, həmçinin çoxarvadlılıq və erkən/uşaq nikahları 70 illik Sovet hakimiyyəti dövründə praktiki olaraq yox həddinə çatdırılmışdı.

Bununla yanaşı, Azərbaycandakı sovet tipinə uyğun məhdud müasirləşmə ənənəvi ailə təsisatına müəyyən təsir göstərsə də, bütövlükdə bir çox ənənəvi patriarxal cizgiləri aşa bilmədi. O cümlədən, burada söhbət Azərbaycanda ailə təsisatının əsasını təşkil edən razılaşma əsasında nikah, qohum nikahlar, böyük ailələrin yayılması, qadının ailəyə, uşaqların doğulması və böyüdülməsinə bağlılığı və s. kimi elementlərdən gedir. Bu cür ənənəvi ailə təsisatı bir tərəfdən öz üzvlərinə sosial, iqtisadi, emosional dəstək verməklə yanaşı, digər tərəfdən patriarxallıq yaradır, xüsusilə qadınlar üçün sərt sosial normativlər, o cümlədən gender davranışları meydana çıxarır.

Tarixi mədəni kökləri olan mədəni dəyər, norma və adətlərə dayanan bu ənənəvi əlamət və təsəvvürlər özlərinin bütün davamlılıqlarını nümayiş etdirməklə sovet dövründə və indi də saxlanmışlar, hətta postsovet Azərbaycanında aktivləşməklə Azərbaycandakı ailə təsisatına əhəmiyyətli təsir göstərirlər. Burada Azərbaycan cəmiyyəti üçün postsovet dönəminin xüsusiyyətlərini nəzərə almaq lazımdır. O

cümlədən, yeni müstəqillik əldə etmiş Azərbaycanda erməni hərbi təcavüzü nəticəsində 1 milyona yaxın qaçqın və məcburi köçkünün meydana gəlməsi, çoxsaylı dullar, reproduktiv yaşda olan kişilərin əhəmiyyətli dərəcədə itkisi, əmək qabiliyyətli kişi əhalinin xarici ölkələrə iqtisadi miqrasiyası postsovet Azərbaycanında bir çox unudulmuş hesab edilən ənənəvi ailə və nikah təsisatı təcrübəsinin yenidən bərpasını şərtləndirmişdir. O cümlədən, sovetəqədərki dövrdə yayılmış erkən/uşaq nikahları təcrübəsinin aktivləşməsindən söhbət gedir.

İndiyədək Azərbaycanda erkən nikahlarının sistematik şəkildə öyrənilməsi üçün çox az səy göstərilmişdir. Lakin kütləvi informasiya vasitələri və ictimaiyyətin bəzi nümayəndələri bunu narahatlıq doğuran məsələ kimi təqdim edirlər. Bəzi hallarda bunu hazırkı vaxta qədər davam edən tarixi ənənə kimi təqdim edirlər. Başqaları erkən nikahların yayılması əmək miqrasiyası nəticəsində demoqrafik dəyişik, iqtisadi amillər və ya dinin təsirinin artması nəticəsində meydana gələn meyl hesab edirlər.

Bütün bunlar bu məsələ barədə xüsusi tədqiqat aparılmasının vacibliyini göstərir. Problemin aktuallığını və mühümlüyünü nəzərə alaraq, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi ilə Sosioloji Tədqiqatlar Mərkəzi tərəfindən Azərbaycanda erkən nikahları barədə tədqiqat işlənib həyata keçirilmişdir.

### *Tədqiqatın məqsədi və vəzifələri*

Tədqiqatın əsas məqsədi Azərbaycanda erkən nikahlarla bağlı mövcud vəziyyətini, onların səbəbləri və nəticələrini öyrənməkdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələri qarşıya qoyulmuş və həll edilmişdir:

1. Azərbaycanda erkən nikahlarının yayılma dərəcəsi və onun dəyişmə tendensiyası ilə bağlı mövcud rəylərin öyrənilməsi;
2. Erkən nikahlarının qurulmasının səbəb və motivləri müəyyən edilməsi;
3. Erkən nikahlarının qurulmasında məcburiyyət və könüllüyün nisbətini müəyyən edilməsi;
4. İctimai rəyin erkən nikahlara münasibətinin öyrənilməsi;
5. Erkən nikahların qadınların inkişafı və ailə həyatı üçün nəticələrinin öyrənilməsi.

### *Tədqiqatın metodologiyası*

Göstərilən vəzifələrin həlli üçün ilkin məlumatların toplanılmasında keyfiyyət metodu olan dərinləşmiş müsahibədən istifadə olunmuşdur. Dərinləşmiş müsahibə erkən nikahları iştirakçıları və ya onların valideynləri ilə keçirilmişdir.

Cəmi 100 dərinləşmiş müsahibə keçirilmişdir ki, bunların 84-ü erkən nikahlarının iştirakçıları, 16-sı isə onların valideynləri ilə baş tutmuşdur.

Müsahibələr telefon vasitəsilə keçirilmişdir. Münasib respondentlərin telefon nömrələrin tapılmasında regionlarda fəaliyyət köstərən Qadın Resurs Mərkəzləri böyük kömək göstərmişdirlər. Respondentlərin tapılmasında, həmçinin, Sosioloji

Tədqiqatlar Mərkəzinin işçiləri və respondentlərin özləri tərəfindən verdikləri məlumatlardan istifadə olunmuşdur. Müsahibələr tam könüllülük və anonimlik əsasında aparılmışdır.

Müsahibədə iki kateqoriya respondentlər – erkən nikahlarının iştirakçıları və onların valideynləri üçün tərtib olunmuş yarımstrukturlaşdırılmış açıq suallardan ibarət sual vərəqəsindən istifadə olunmuşdur. Sual vərəqəsi elə tərtib olunmuşdur ki, nəticədə hər iki kateqoriya respondentlərdən alınmış məlumatların böyük hissəsini vahid məlumatlar bazasında birləşdirmək mümkün olsun.

Müsahibələr yekunlaşdıqdan sonra bütün 100 müsahibənin transkripsiyası düzəldilmişdir ki, buradan da keyfiyyət məlumatlarının iki kompüter bazası tərtib edilmişdir, bunlardan biri erkən nikah iştirakçılarının, digəri isə valideynlərin. Bəzi mümkün kəmiyyət təhlili almaq məqsədi ilə 100 erkən nikah hallarını əhatə edən məlumatların hər iki kateqoriyadan olan respondentlər üçün vahid bazası yaradılmış və müvafiq suallara olan cavabların kodlaşdırılması prosesi həyata keçirilmişdir.

# II. SORĞU NƏTİCƏLƏRİNİN TƏHLİLİ

## 2.1. Erkən nikahlarının yayılması: miqyası və tendensiyaları

***Erkən nikahlarının yayılma dərəcəsi***

Müsahibə iştirakçılarının erkən nikahlarının yayılması dərəcəsi ilə bağlı rəyləri fərqlənmişdir. Bəziləri erkən nikahlarının geniş yayıldığını hesab edirlər, digərləri isə yox.

Bununla yanaşı, respondentlərin əksəriyyəti erkən nikahların yaşadığı yerlərdə mövcüd olması ilə razılaşmışlar. Əksəriyyət belə hallar barədə bilirlər, öz təcrübələrindən bir çox hadisələr misal göstərirlər. Erkən nikahların yaşadığı ərazidə nə dərəcədə yayılması sualına respondentlərin üçdə bir hissəsi geniş yayılmışdır cavabını vermişlər. Buna aid misallar:

*«Bu kənddə çoxdur. Hal hazırda da çoxdur. Elə 9-cu sinfi qurtarmamış, 10-cu sinfi qurtarmamış qızları nişanlayırlar...»* (Salyan rayonu, Xoşarbatan kəndi).

*«Bizim kəndimizdə erkən nikahlar çox yayılıb. 90% qızlar tez ərə verilir...»* (Bakı şəhəri, Nardaran qəsəbəsi).

*«Var, çoxdur. Çox adam buna pis baxmır»* (Biləsuvar rayonu, Viləş kəndi).

Respondentlərin əksəriyyəti isə erkən nikahlara tez-tez rast gəlinmədiyini bildirmişlər. Məsələn:

*«İndi çox azdır. Demək olar ki, yox dərəcəsindədir. İndi qızlar erkən yaşda ərə getmir. Ən tez 19 yaşında ərə gedirlər»* (Masallı rayonu, Ərkivan qəsəbəsi).

*«Yox, o qədər də çox deyil, çox az-az rast gəlirəm 16-17 yaşında ərə gedən qızlara»* (Neftçala rayonu, Mayak kəndi).

***Son illərdə erkən nikahlarının sayı necə dəyişib?***

Erkən nikahlarının yayılma dərəcəsi barədə fikir ayrılığına baxmayaraq, respondentlərin mütləq əksəriyyəti hesab edir ki, son illərdə erkən nikahlarının sayı azalmışdır. Buna aid misallar:

*«Yox, indi qalmayıb. İndi elə şeylər yoxdur. Əvvəllər var idi. Biz evlənən vaxt var idi, indi yoxdur»* (Qusar rayonu, Kuzun kəndi).

*«İndi çox azdır, əvvəllər çox idi. İndiki qızlar hər şeyi başa düşüb edirlər. Yəni, indi erkən yaşinda ailə qurmaq istəyən yoxdur»* (Biləsuvar şəhəri).

*«Hal-hazırda yox. Bizim dövrümüzdə hamı tez verirdi qızlarını. İndi qorxurlar. Dövlətin qayda-qanunu var»* (Saatlı rayonu, Yeni Novruzlu kəndi).

*«Vallah, həmişə çox idi. Biz nişanlanan vaxtlarda çox idi. Amma cəmiyyət adaptasiya olduqca, getdikcə erkən nikahlar azalıb. Heç bu günlərdə bəlkə də yoxdur. 18 yaşı tamam olmamış heç kim qızını ərə vermir. Nə oğlan tərəf, nə də qız tərəf tələsmir»* (Göyçay rayonu, Şəkər kəndi).

*«Açığı desəm, yayılıb. Burada var. Hətta 12-13 yaşında da qızları ərə verirlər. Amma əvvəlki kimi deyil. 5-6 il əvvəl daha çox yayılmışdı. İndi nisbətən azalıb»* (Masallı şəhəri).

Respondentlərin çox az bir hissəsi (cəmi 3 nəfər) hesab edir ki, son illərdə erkən nikahlarının sayı artmışdır. Onlardan biri söyləyir:

*«Bəli, kəndə tamamilə çox artıb. Qızlar 15, 16, 17 yaşına çatan kimi verirlər. Yəni 18,19,20 yaşında qızlara qocalmış deyirlər. Qalıb evdə. Kənd yerində qadın xeylağının oxumasına, işləməsinə bir az pis baxırlar. Yəni ki, qadın yalnız uşağa baxar, ev işi ilə məşğul olar»* (Abşeron rayonu, Pirəkəşkül qəsəbəsi).

## 2.2. Erkən nikahlarının qurulmasının səbəbləri və motivləri

Tədqiqatın əsas məqsədlərindən biri valideynlərin yetkinlik yaşına çatmamış qızlarını ərə verərkən hansı motivləri əsas götürdüyünü aşkar etmək idi. Erkən nikahlarının iştirakçıları və onların valideynləri ilə müsahibə materiallarının xüsusi təhlili valideynlərin motivlərini anlamağa kömək edir.

Erkən nikah hallarında valideynlər qızlarını ərə verərkən hansı motivləri rəhbər tuturlar? **1 saylı cədvəl** bu suala cavab verir. Bu cədvəldə araşdırdığımız erkən nikah hallarında valideynlər öz qızlarının nikah bağlamasına razılıq verərkən əsas motivlərini göstərir. Burada valideynlərin iştirakı və razılığı olmadan, qızların könüllü və ya zorakılıqla valideynlərinin xəbəri olmadan qaçırılması yolu ilə bağlandığı 11 hal nəzərə alınmır.

**Cədvəl 1. Erkən nikah bağlamış qızların valideynlərinin motivasiyası**[1]

| | % * |
|---|---|
| Qızın gələcəyi üçün nigaranlıq | 48 |
| Adət və ənənə | 34 |
| Ailənin maddi vəziyyəti | 17 |
| Qızın öz istəyi | 9 |

* Bəzi respondentlər bir neçə motiv qeyd etmişdi, buna görə alınan cavabların ümumi faizi 100-dən artıqdır.

## *Qızın gələcəyi üçün nigaranlıq*

Yuxarıdakı cədvəldən göründüyü kimi, ən çox rast gələn motiv valideynlərin öz qızlarının gələcəyinin qeydinə qalmasıdır. Respondentlərin 48% bu varianta istinad etmişdir. Lakin ümumiyyətlə pozitiv xarakter daşıyan bu motivin məzmununu daha dərindən aydınlaşdırmaq üçün bir məsələ xüsusi maraq doğurur: valideynlər öz qızlarının xoşbəxt gələcəyini nədə görürlər? Bu barədə respondentlərin ən səciyyəvi fikirlərindən bir neçəsi ilə tanış olmaq maraqlıdır:

«*Oğlan yaxşı oğlan idi. Hamı onu tərifləyirdi, yaxşı qazanırdı, Rusiyanın bazarlarında ticarət obyekti var idi. Ona görə də valideynlərim məni ona vermək istədilər*» (Sabirabad rayonu, Ulacalı kəndi).

«*Yoldaşımla mən qərar vermişik. Bildik ki, saxlaya biləcək. Ona görə*» (Abşeron rayonu, Xırdalan şəhəri).

*«Atası istəyirdi ki, qızımızın gələcəyi üçün arxayın olsun. Ona görə verdi»* (Bakı şəhəri).

*«Oğlan çox yaxşı oğlan idi. Valideynlərim də məni tez yer-bə-yer etmək istəyirdilər. Oğlan öz kəndlimiz idi. Valideynlərim onu və onun ailəsini tanıyır, etibar edirdi. Bizdə axı "özümüzkü" deyilən bir anlayış var, qızları adətən gözdən uzağa vermək istəmirlər. Əsas məsələ də odur ki, oğlan ailəcanlı, evə qazanc gətirən oğlandır. Söhbət onun çox böyük imkanlarından getmirdi. Amma stabil çörəyi var idi, ailəsini dolandıra bilərdi»* (Lənkəran rayonu, Girdəni kəndi).

«*Qızımızı öz qohumumuza verdi. Həm də qonşumuz idi, yaxşı yerdən gəlmişdilər, biz də fikirləşdik, qızı verək getsin, yaşının keçməyini gözləməyək*» (Lənkəran rayonu, Mamusta kəndi).

---

[1] Bütün aşağıdakı cədvəllərdə göstərələn faizlər yalnız tədqiqatda iştirak edən 100 respondentin nisbinin göstəricisidir və bütöv ölkə üzrə göstərici sayıla bilməz.

Bu mühakimələrdən göründüyü kimi, valideynlərin nəzərində öz qızlarının gələcəyinin təmin edilməsi onu ərə verməkdir, özü də onun ərinin varlı olmasının, yaxud nüfuzlu və imkanlı ailədən olmasını istəyirlər. Başqa sözlə desək, valideynlər hətta qızlarının xoşbəxtliyi motivini əsas götürəndə də çox vaxt möhkəm ailə qurmaqdan ibarət olan ənənəvi qadın xoşbəxtliyini nəzərdə tuturlar. Valideynlərin bir qisminin fikirincə onların rolu məhz bundan ibarətdir ki, özləri sağ ikən qızlarını tezliklə ərə versinlər, onun ailə həyatını qursunlar.

Bununla yanaşı, müsahibələr vasitəsilə erkən nikah nümunələrin təhlili nəticəsində məlum olmuşdur ki, bu cür nikahların səbəbləri çox vaxt valideynlərin yaxın əlaqədə olduğu dostların, tanışların əhatə dairəsi ilə qohum olmaq, eləcə də qızlarını öz qohumlarına və ya həmyerlilərinə vermək arzusu ilə bağlıdır. Adətən belə hesab edirlər ki, qızın tanış və ya qohum ailəsinə düşməsi onun gələcək ailə həyatının xoşbəxtliyi üçün müəyyən bir zəmanətdir. Buna görə də valideyn öz qızını tanış-qohum ailədən olan oğlana ərə verməyini daha üstün tutur və qızın erkən yaşına baxmayaraq belə imkan yarananda onu itirməmək üçün tanış-qohum ailədən gələn elçiyə tez razılıq verir. Bu səbəbi nümayiş etdirən müsahibələrdən bəzi fraqmentlər bunu təsdiq edir:

*"Bizim ailədə nəsli davam etdirmək üçün qohumlarla ailə qurmağa üstünlük verilir. Əksinə, kənar şəxslərlə ailə qurmağa bizim nəsildə pis baxılır. Buna görə də məni qohumla evlənməyə məcbur etdilər"* (Bakı şəhəri).

*"Qızım uşaq idi. Həyatdan nə başa düşürdü ki, onu da sövq edən bir şey olaydı. Atası oğlanın qardaşı ilə yaxın dost idi. Elə bu səbəbdən də dilsiz-ağılsız 15 yaşlı uşağı verdik, heç fikrini də soruşmadıq...Atasının o ailədən xoşu gəlmişdi, vermişdi"* (Bakı şəhəri).

*"Yox, onun seçimi deyildi. Onu digər rayondan istəyirdilər. Biz ona narazı olduq, tanımadığımıza görə. Öz rayonumuzdan istəyən var idi, onu məsləhət bildik. Bayaqdan dediz erkən nigah. Qızım heç ayılmamışdı ki, kimisə istəyə. Onu özümüz vermişik"* (Abşeron rayonu, Xırdalan şəhəri).

*«Qızımızı öz qohumumuza verdik. Həm də qonşumuz idi, yaxşı yerdən gəlmişdilər, biz də fikirləşdik, qızı verək getsin, yaşının keçməyini gözləməyək»* (Masallı şəhəri).

*«Qızımızın hər ikisini yoldaşım verib, birini öz məktəb yoldaşının oğluna, birini də uzaq qohumuna, qızların fikrini soruşan olmadı heç. Kişi dedi ki, özüm yaxşı bilirəm, kimə vermək lazımdır. Bir nəfər belə qarışmasın mənim işimə. Elə də oldu. Onun fikrincə, nə qədər ki, atanın gözü baxır, qızlarını yaxşı yerə ərə verməlidir»* (Lənkəran rayonu, Siyavar kəndi).

*«Valideynlərin sözü ilə durub oturmuşam… Öz əmim oğluna getmişəm, atam dedi ki qardaşım oğluna verirəm»* (Salyan şəhəri).

*"Nikahım ailənin dostluq əlaqələrini qohumluğa çevirmək arsuzunun nəticəsi olmuşdur"* (Bakı şəhəri).

Bununla yanaşı, respondentlərin böyük bir hissəsi yetkinlik yaşına çatmamış qızın ərə verilməsinin əsas səbəbi kimi valideynlərin qızın evdə qalmasından qorxu hissini qeyd edirlər. Valideynlərin bu qorxu hissi ərə getməyən qız barəsində müəyyən mənfi rəy yaranması ilə bağlıdır. Buna görə də hər hansı imkan düşən kimi qızı ərə verirlər. Bu səbəbi əks etdirən respondentlərimizin deyimlərini misal göstərək:

*«Vallah, bilmirəm şəhər yerində necədir, kənd yerində istəyirlər tez ərə versinlər, ... qonum-qonşu başlayır qınağa çəkməyə ki, evdə qaldı, bundan sonra bunu kim alacaq»* (Göyçay rayonu, Şəkər kəndi).

*«Valideynlər qızların tez ərə verməyə can atırlar. Çünki hamı qızdan qorxur. Bu səbəbdən də qızları tez yer-bə yer etmək istəyirlər ki, qız ata evində qalanda, yaşı keçir»* (Lənkəran şəhəri).

*«Bizim bölgədə... qızın bir az yaşı ötəndə, ... artıq ehtiyat edirlər ki, qız evdə qaldı, onu alan olmadı. Qızın ki, 18-19 yaşı oldu, onu lap qarımış qız sayırlar. Odur ki elə hesab edilir ki, adamın qapısına bir dəfə gələrlər, iki dəfə, daha 3-cü dəfə heç kəs bizə tərəf durmaz. Odur ki deyirlər, nə qədər ki, qismətinə biri çıxıb, qızı verin getsin!»* (Lənkəran şəhəri).

*«Qorxurdular, evda qalam, elçi gəldi verdilər»* (Masallı rayonu, Mahmudavar kəndi).

*«Qız uşağı haqqında narahat olurlar: Deyirlər qızım bir az yaşlaşdı qalacaq evdə və qızı imkan daxilndə tez ərə vermək lazımdır»* (Bakı şəhəri, Kürdəxanı qəsəbəsi).

*«Qızı yetkinlik yaşını keçəndən sonra qarımış kimi hesab edirlər, o da qıza çox pis təsir edir. Ona görə qarşısına çıxanı öz bəyəndiyi hesab edir»* (Salyan rayonu, Arbatan kəndi).

*«Mən elə bilirəm ki, qızlarından qurtulmaq üçün. Eləsi var deyir ki, bu qızın yaşı gedir, qızım evdə qaldı. Hər şeyə səbəb olan bu fikirlərdir»* (Masallı rayonu, Binəxocavar kəndi).

*«Onlar elçi gəldi, seyiddilər, ağır adamdılar. Anam tələsirdiki, birdən məni alan olmaz»* (Salyan şəhəri).

*«Bizdə buralarda elədir ki, 16,17 yaşında olan qızlara pis baxırdılar ki, artıq evdə qalmış qızdır. Beləcə məni ərə verdilər... Sadəcə olaraq, el arasında filankəsin qızı ərə getdi, tez ərə verək, birdən qızım evdə qalar və s.»* (Masallı şəhəri).

Bununla bərabər, qeyd etmək lazımdır ki, valideynlərin qızın evdə qalmasından qorxu hissi müəyyən dərəcədə demoqrafiya amili ilə bağlıdır. Hazırda kişilərin çoxu Rusiyada və başqa ölkələrdə əməkçi miqrant vəziyyətində olduğuna görə kəndlərdə kişilər qadınlardan azdır və cavan qızların ərə getməsi üçün imkan çox azdır. Onlar ailə qura bilmirlər. Buna görə də valideynlər öz qızlarını ərə vermək üçün bütün imkanlardan istifadə edirlər. Onlar elə ilk elçiyə razılıq verirlər. Çünki bir başqasının da elçi gəlməsi ehtimalı çox aşağıdır. Bu barədə respondentlərin sözləri:

*"Biləsuvarda bir qadın mənə yaxşınlaşıb dedi: Mənim 9 qızım var, onları kimə ərə verəcəyimi bilmirəm, kənddə bir nəfər də kişi qalmamışdır. Hamısı qazanc dalınca gediblər"* (Biləsuvar rayonu, Əsgərabad kəndi).

*"25 yaşdan yuxarı oğlan tapmaq mümkün deyil, buna görə də valideyin çalışır qızını tez ərə versin"* (Quba şəhəri).

***Adət və ənənə***

Respondentlərin xeyli hissəsi (34%) yetkinlik yaşına çatmamış qızın ərə verilməsində əsas motiv kimi məhz ənənələrə sadiq qalmaqla izah etmişlər:

*«Köhnə adət-ənənə. Bizdə belə hesab olunur ki, 17 yaş gecdir. Ona görə də valideynlərim məni verdilər»* (Biləsuvar rayonu, Günəşli kəndi).

*«Kəndin adəti budur. Biz razı olandan sonra, qızlarımızı da razı olurlar. Evdə oturub nə edəcəkdilər... Son qərarı ərim verib. Yenə də deyirəm, qızları tez ərə vermək bizim kəndin adətidir. Oxumayacaqlar, işləməyəcəklər. Evdə nə üçün otursunlar? Qoy, ərə getsinlər»* (Bakı şəhəri, Nardaran qəsəbəsi).

*«Kəndin adət-ənənəsi. Demək olarki çoxu o yaşda qızını verir.»* (Quba rayonu, Yenikənd kəndi).

*«Valideynlərim məni ona görə yəqin ərə vermək qərarına gəldilər ki, artıq mənim ailə qurmaq yaşında olduğumu düşünürdülər. El adəti də öz rolunu oynamışdır, əlbəttə ki. Axı məktəbi qurtaran qızlar nişanlanmaq üçün potensial namizəddirlər. Və camaatın diqqəti də, necə dyərlər, el gözü bizim kimi qızların üzərində olur. Valideynlər də fəxr edirlər qızlarını "vaxtında" ərə verən zaman. El arasında deyirlər ki, qız yükü ağır yükdür. Bizim ailədə də belə olub* (Lənkəran şəhəri).

*«Adət elədir ki, qızların tez verilməsi alqışlanır əhali arasında. Valideynlərim bu adət-ənənəyə sadiq qalaraq məni tez ərə verdilər. Oğlan da yaxşı ailədən idi, onların "yox" deməyə əsası da yox idi»* (Lənkəran rayonu, Sütəmurdov kəndi).

*«Məncə, adətə görə. Çünki bizim kənddə bayaq qeyd etdiyim kimi qızları tez ərə verirlər. Bizim ailədə maddi çətinlik üzündən məni tez ailə qurmağa məcbur etməyiblər»* (Bakı şəhəri, Nardaran qəsəbəsi).

Respondentlərin bir neçəsi erkən nikahlarına şərait yaradan yerli adət və normaların valideynlərlə yanaşı evlənən kişilərə də təsir etməsini qeyd edir:

*«Oğlanlar elə bir qız almaq istəyirlər ki, sonra onların o qızla bağlı problemi çıxmasın. Yəni nə tərəfdən. Qızın özünün proqressiv fikirləri varsa, düşünməyi bacarır, sözü deməyi bacarırsa, oğlan fikirləşir ki, bu qızla yaşamaq çətin olacaq»* (Lənkəran şəhəri).

*«Oğlanlar kiçikyaşlı qızları ona görə alırlar ki, istədiklərini diktə edə bilsinlər»* (Abşeron rayonu, Xırdalan şəhəri).

*"Ailə quran kişi istəyir ki, elə bir insanla ailə qursun ki, onu gətirib öz xasiyyətinə uyğun olaraq nədir cəlb eləsin. Bunu onlar azyaşlı qızlarla evlənməkdə görürlər, yaşlı qızlar hansı ki artıq gəlir 20, 23 yaşa, onlar artıq bu zaman, bu dövr, bu televizor, bu cəmiyyət onları başqa cür böyüdür, başqa cür tərbiyyə edir"* (Quba rayonu, Zərdabi kəndi).

Asanlıqla görmək olar ki, bu mülahizələrin arxasında ənənəvi Azərbaycan ailəsinə xas olan patriarxal qaydaları qoruyub saxlamaq istəyi dayanır. Məlum olduğu kimi, patriarxal ənənələr kişilərin dominant roluna əsaslanır və bu halda belə fərz olunur ki, müəyyən edilmiş gender rollarına görə qadınlar öz ərlərinə tam itaət etməli və tabe olmalıdırlar. Ailədə üstün rola malik olmaq arzusu kişilərin az yaşlı qızlarla evlənmək istəyinə təkan verən mühüm mənbədir. Onlar belə hesab edirlər ki, bu halda ərin nüfuzu və arvad üzərində hakimiyyəti daha az riskə məruz qalır.

***Ailənin maddi vəziyyəti***

Erkən nikahlarının geniş yayılmasının mühüm əmillərindən biri ailənin iqtisadi vəziyyətinin çətin olmasıdır. Bu insanları vəziyyətə uyğunlaşmaq strategiyası yaratmağa məcbur edir. Mövcud şəraitə uyğunlaşmağın üsullarından birini erkən nikahlar bağlamaqda görürlər. Yoxsul ailələr övladlarını dolandırmağa, onlara təhsil verməyə çətinlik çəkir, buna görə də qızlarını mümkün qədər tez ərə verməyə çalışırlar.

Onu da qeyd etmək lazımdır ki, respondentlərin az bir hissəsi (17%) yetkinlik yaşına çatmamış onların və ya qız övladların ərə verilməsinin səbəbi kimi ailənin maddi vəziyyətinin pis olmasını göstərmişlər:

*«Kasıbçılıq ucundan biz onu 15 yaşında həyat qurmağa məcbur etdik. Ona görə ki, dolanışıq çox çətin idi. Onun həyat yoldaşının vəziyyəti yaxşı olduğuna görə verdik ki, bizə də kömək edə bilsinlər. Bizim vəziyyətimiz pis idi. Kənd yeridir. Dolanışıq yox, pul yox. ... Ona görə belə etdik»* (Göyçay rayonu, Veysəlli kəndi).

*"Çünki atamın işi məlumdur. Yəni, fəhlədir. Kasıb yaşayırdıq. Ona görə də anam dedi ki, get öz yuvan olsun. Sonra arxanca bacıların və qardaşın var. Onlar da öz yuvalarını qursunlar.*
*- Müsahibəçi: Yəni, əsas maddi vəziyyətə görə ərə verdilər, düzdür?*
*- Respondent: Bəli."* (Masallı rayonu, Mahmudavar kəndi).

*"Məni anam kasıbçılıq ucundan 15 yaşında verdi, başıma gələn müsibətlərdən də peşman oldu"* (Ağstafa şəhəri).

*"Səmimi deyim, imkan barəsində, mənim valideynlərimin imkanı yox idi. Ona görə məni verdilər"* (Neftçala rayonu, Kürkəndi).

Dərinləşmiş müsahibələr məlumatların əsasında gəlinlərin və adaxlıların ailələrinin iqtisadi vəziyyətindəki fərqlərin təhlili də erkən nikahlarına iqtisadi baxışı müəyyən mənada təsdiq edir. **2 saylı cədvəldə** bəy və gəlinin ailələrinin maddi vəziyyətinin müqayisəli təhlili Azərbaycanda erkən nikahlar fenomenin determinasiyasında iqtisadi amilin roluna bir qədər də aydınlıq gətirir.

**Cədvəl 2. Gənc ər və arvadın ailələrinin iqtisadi vəziyyətində fərqlər**

| | % |
|---|---|
| Ər ailəsindən yaxşı | 15 |
| Eyni | 43 |
| Ər ailəsindən pis | 42 |
| **Cəmi** | **100** |

**2 saylı cədvəl** erkən nikahlara girən qızların və ərlərin ailələrinin nikah bağladığı anda maddi vəziyyətində fərqlərini göstərir. Araşdırdığımız halların 42%-ində qızlar öz ailələri ilə müqayisədə daha imkanlı ailələrdən olan kişilərə ərə getmişlər. Maddi imkanları daha aşağı olan kişilərlə nikaha girənlərin sayı isə qat-qat azdır (15%), qalan hallarda nikah bağlayan ailələrin maddi vəziyyəti təxminən eyni olmuşdur. Beləliklə, iqtisadi cəhətdən daha imkanlı kişilərlə imkanları daha aşağı olan qadınlar arasında erkən nikah etimalının daha yüksək olması aşkar görünür.

***Qızın öz istəyi***

Rəyi soruşulanların cəmi 9%-i valideynlərin razılığının əsas səbəbi kimi qızın özünün belə istəyi olmasını göstərmişdir. Bəzi hallarda valideynlər qızlarının erkən yaşda nikah bağlamasının əleyhinə olsalar da, ya rədd cavabı verməklə qızının taleyinə müdaxilə etmək istəməməsini, ya da qızın gələcək əri ilə qaçacağından ehtiyat etməsini nəzərə alaraq razılıq verməyə məcbur olmuşlar. Bu barədə respondentlərin fikirlərindən bir neçəsi ilə tanış olmaq maraqlıdır:

*"Özüm seçmişəm... Mamam razı deyildi, çünki mamamgil, nənəmgil biraz nüfuzlu ailə idilər, razı deyildilər, sadəcə mən özüm seçdim, onlar yaxşı ailə deyildilər, atası içən idi... Sonra bacım dedi, bacım məndən 2 yaş böyük idi, institutda oxuyurdu, o dedi, mama ver, olmasa qaçacaq"* (Salyan şəhəri).

*«Əlbəttə bizim ilk reaksiyamız şok olmuşdu, heç cürə razı ola bilmirdik. Həyat yoldaşımla mən də biri-birimizi sevib ailə qurmuşduq. Odur ki, maneçilik törətmədik. Bizim bu mövzuda qızımızla söhbətimiz olmuşdu. Mən sadəcə olaraq ona dedim ki, o bu barədə fikirləşsin. Mən onu fikrindən döndərmək istəmədim. Çünki görürdüm ki, qızım o insanı sevir. Son söz atasının oldu. O dedi ki, əgər qızımız bu yolu seçibsə, gəl onun seçiminə hörmətlə yanaşaq. Dedi ki, əgər biz onun seçiminin əksinə getsək, kim bizə zəmanət verir ki, onun həyatda qarşısına elə bir insan çıxacaq ki, o qızımı, qızım onu sevsin və ailə qurmaq istəsin. Biz onun istəyinin əksinə getməklə ümumiyyətlə onun həyatını sındıra bilərik. Atası qızıma belə bir xeyir-dua verdi»* (Bakı şəhəri).

*«Oğlan qızın öz seçimi olmuşdur. Oğlanın 22 yaşı var. Yaxşı zəhmətkeş bir ailənin övladıdır. Ailə qədrini, böyük-kiçik yerini biləndir. Bir neçə dəfə elçi gəldilər. Əvvəl mən və həyat yoldaşım bir qədər tərəddüd etdik. Dedik ki, qızımız hələ uşaqdır. Evdə böyüklərin razılığını bilib, qızın oxumadığını nəzərə alaraq, razılıq verdik. Əsas bir də bir səbəb buna təkan verdi. Bu qızın öz seçimi idi. Qorxduq ki, razılaşmasaq, qız qoşulub qaçar. Onda biabır olarıq. Bu nikaha biz tərəfdən heç bir təzyiq olmadı»* (Ağstafa rayonu, Poylu kəndi).

*«Öz qərarım idi. Anamı "hə" deməyə yalnız mənim təkidim, mənim oğlanı dəlicəsinə sevməyim yola gətirdi. Ona dedim ki, mən bu oğlanla görüşürəm. O da fikirləşib ki, elə qız sevdiyi oğlanla evlənsə yaxşıdır»* (Lənkəran şəhəri).

*«Atam gil bibimlə məsləhətləşdi. Əslində valideynlərim çox da razı deyildilər. Çünki deyirdilər ki, hələ uşağam. Amma mən oğlanı sevirdim. Onlardan məndən soruşanda onlara oğlanı sevdiyimi etiraf etdim. Onlar da razılaşdılar. Buna görə də verdilər ona məni»* (Lənkəran rayonu, Liman şəhəri).

*«Özüm istəmişəm getmişəm...Atam heç razılaşmadı, amma anamla qətiyyən mübarizə aparmadım, dedi eybi yoxdur. Amma atam yox, atamla çox mübarizə apardım, deyirdi tezdir... Artıq oğlan evi dedilər ki, ya verəcəksiz, ya da qaçıracayıq. Anam da dedi ki, bir qızdır, qaçmağındansa, toyu olsun, elə getsin»* (Bakı şəhəri).

***Xüsusi motiv: Qızın "korlana" biləcəyindən, özünü "ləkələməsindən" qorxu***

Müsahibələrin respondentləri qızlarını erkən yaşda ərə verən başqa valideynlərin motivlərini necə interpretasiya etməsi də müyyən dərəcədə maraq doğurur.

*"Sizin fikrinizcə, nə üçün bəzi valideynlər öz qızlarını mümkün qədər tez ərə verməyə çalışırlar?"* sualının cavabında respondentlər adətən tədqiq edilmiş erkən nikah hallarında valideynlərin rəhbər tutduğu motivləri göstərmişdir – qızın gələcəyini təmin etmək, adət və ənanə, ailənin iqtisadi problemlərini, qızın arzusuna əməl etmək. Lakin çox maraqlıdır ki, respondentlərimiz özləri və ya özlərinin valideynləri haqqında yox, ümumiyyətlə valideynlər haqqında danışarkən bir sıra hallarda indiyə qədər adını çəkmədiyimiz daha bir motivi qeyd etmişlər: valideynlər öz qızlarının "korlana" biləcəyindən qorxurlar.

Bu motiv qızların erkən cinsi yetişkənliyini və bunun nəticəsi kimi seksual həyata marağının meydana gəlməsi ilə bağlıdır. Bəzi valideynlər qorxurlar ki, qızları cinsi əlaqəyə girərlər. Nəzərə alınsa ki, Azərbaycan xalqının mentalitetində nikaha qədər əlaqələr qadağandır və bakirəliyin nikaha qədər qorunub saxlanması xüsusi qiymətləndirilir, seksual təlabatların reallaşmasının yeganə yolu nikahda görülür. Müvafiq olaraq valideynlər, qızlarını mənfi təsirlərdən mühafizə etmək üçün onları tez ərə verməyə çalışırlar. Bu motivin mahiyyəti müsahibələrdən götürülmüş aşağıdakı fraqmentlərdən aşkar görünür:

*«Qorxullar ki, qızlar əyri yolla getsinlər, ailəyə ləkə vursunlar»* (Göyçay şəhəri).

*«Valideynlər bəzən qorxurlar ki, qızları pis yola düşərlər, sərbəstliyə yol verərlər, adları çıxar, camaatın dedi-qodusundan can qurtarmaq olmaz. Ona görə əsasən valideynlər qızlarını erkən ərə verməyə tələsirlər»* (Lənkəran rayonu, Girdəni kəndi).

*«Valideyin çox vaxt qorxur, qızı yoldan çıxararlar, ona görə, tez ərə verir. Əslində bu düzgün deyil, qız heç olmasa bir az həyat təcrübəsi almalıdı ki, bilsin ailə qurmaq nə deyən şeydir»* (Ağstafa şəhəri).

*«Düşünürəm ki, hər bir valideynin öz əsası var ki, qızını belə tez ərə verir. Yəqin ki, valideynlər bu addımı ona görə atırlar ki, qızları evdə qalmasın, rəfiqələrinin və dostlarının pis təsiri altına düşməsin»* (Bakı şəhəri).

*«Qorxurlar, bilirsiz, deyəcəyəm nəyə görə, ... valideynlər qorxurlar qızları pozular, indiki dövrdə çətindir qız uşağını saxlamaq. Düzgün tərbiyə vermirlər...»* (Salyan rayonu, Şorsulu kəndi).

*«Bilirsiniz, elə ailələr var ki, uşağı düzgün tərbiyə olunmur. Uşağı 12-13 yaşdan başlayır kosmetikaya əl atmaq. Bu bizim problemimizdir. Başqa-başqa paltarlara əl atır. Başqa-başqa hərəkətlər edir. Mən belə başa düşürəm ki, o valideynlər bir növ qorxusundan qızlarını tez ərə verməyə çalışır»* (Bakı şəhəri).

*«Qız uşağına yük kimi baxırlar, yəqin fikirləşirlər, tez verək başımızdan edək, fikirləşirlər qız uşağıdır, adımızdadır, bir şey olar, adına ləkə gələr* (Masallı rayonu, Hişkədərə kəndi).

*«Zəmanə pisləşib, qorxurlar ki, bir şey olar. Hər bir şey nöqsandır. Ailə dəyərlərindən söhbət etdiniz. Yəni, qız elədir ki, bir şey oldusa, artıq qızın adına ləkə düşür. Azərbaycanda da belə şeyə pis baxırlar. Bunlardan qorxduqları üçün tez ərə verirlər»* (Masallı rayonu, Köhnə Alvadı kəndi).

*«El arasında deyirlər ki, qız yükü duz yüküdür. Onun adına xələl gələcəyindən, camaatın dil-ağzına düşməkdən utanırlar, bu səbəbdən də ata-ana çalışır ki, mümkün qədər tez ərə versin qız uşaqlarını»* (Lənkəran şəhəri).

Tamamilə aydındır ki, burada söhbət valideynlərin öz qızlarının nikahdan əvvəl cinsi əlaqəyə girəcəyindən və bununla əlaqədar qızın və ailənin imici üçün neqativ nəticələr yaranacağından ehtiyat etmələrindən gedir.

***Sovet dövrü ilə müqayisədə valideynlərin motivlərində dəyişiklər***

Sovet dövründə, yəni 1991-ci ilin axırına qədər erkən nikah hallarında valideynlərin motivlərini həmin dövrdən sonra bağlanmış nikahlarla müqayisə etdikdə bu qənaətə gəlmək olar ki, ölkəmizdə sosial transformasiya dövründə yetkinlik yaşına çatmamış qızların ərə verilməsinin motivasiyasında ciddi dəyişiklər olmuşdur. Sovet dövründə tədqiq edilmiş erkən nikahların yarısından çoxunda (60%) valideynlərin əsas motivi

ənənələrə riayət etmək idisə, postsovet dövrünə aid hallarda bu motiv iki dəfədən çox azalmışdır (28%). Digər tərəfdən, keçid dövründə yeni motiv – sovet dövrünə aid erkən nikahların heç birində rast gəlməyən "ailənin iqtisadi problemləri" motivi yaranmışdır. Postsovet dövründə yetkinlik yaşına çatmamış qızların ərə verilməsi zamanı "qızın gələcəyini təmin etmək" motivi də geniş yayılmışdır (35%-dən 57%-ə qədər). Valideynlərin qızın öz istəyini nəzərə alması halları demək olar ki, əvvəlki səviyyədə qalmışdır.

Beləliklə, keçid dövründə valideynlərin öz qızlarını erkən yaşda ərə verərkən iqtisadi mülahizələrə üstünlük verməsi halları kifayət qədər geniş yayılmışdır. Buna müvafiq olaraq mədəni-tarixi ənənələrə riayət etmək istəyi nəzərəçarpacaq dərəcədə zəifləmişdir.

### *Valideyn motivlərin ailələrin sosial xarakteristikalarından asılılığı*

Apardığımız təhil göstərir ki, valideyn ailəsinin bəzi sosial xarakteristikaları: maddi vəziyyəti, valideynlərin təhsil səviyyəsi və ailənin dindarlıq səviyyəsi yetkinlik yaşına çatmamış qızların ərə verilməsində valideynlərin motivlərinin xarakterinə əhəmiyyətli təsir göstərir.

Bu amillərdən valideyn ailəsinin maddi vəziyyəti daha güclü təsirə malikdir. "İqtisadi problemlər" motivi əsasən maddi vəziyyəti pis olan ailələrdə göstərilir, maddi vəziyyəti orta səviyyədə olan ailələrdə bu motivə çox nadir hallarda istinad edilir. Maddi cəhətdən imkanlı ailələrdə baş vermiş erkən nikah hallarında motiv kimi iqtisadi problemlərə bir dəfə də istinad edilməmişdir. Maraqlıdır ki, maddi vəziyyəti pis olan ailələrdə valideynlər daha çox hallarda qızın istəyini nəzərə alırlar. Görünür, bu onunla bağlıdır ki, belə ailələrdə valideynlərin qızın erkən nikahının qarışısını almaq, onu bu addımdan çəkindirmək, alternativ kimi təhsilini davam etdirməsini və başqa variantlar təklif etmək imkanları məhduddur.

Yetkinlik yaşına çatmamış qızların ərə verilməsi motivləri ilə valideynlərin təhsil səviyyəsi arasında asılılığın da mövcud olması aşkar edilmişdir. Tədqiq etdiyimiz hallarda "ənənələrə riayət etmək" motivi təhsil səviyyəsi ümumi orta təhsildən yuxarı, yəni orta ixtisas və ali təhsilli valideynlər arasında çox nadir hallarda rast gəlir. Orta və daha aşağı təhsilli valideynlərlə müqayisədə onlar öz qızlarının gələcəyini təmin etmək arsuzuna daha çox üstünlük verirlər.

Onu da qeyd etmək lazımdır ki, müsahibələrin təhlili göstərir ki, ailənin dindarlıq səviyyəsi ilə valideynlərin öz qızlarını erkən yaşda ərə verməsinin motivləri arasında sıx əlaqə var. Daha dindar ailələrdə valideynlər "ənənələrə riayət etməyə" daha çox meyilli olur və əksinə ailədə dindarlıq nə qədər zəifdirsə belə ailələrdə yetkinlik yaşına çatmamış qızların ərə verilməsində iqtisadi problemlər və qızın istəyi kimi motivlər bir o qədər güclü rol oynayır.

## 2.3. Erkən nigahların bağlanmasında məcburiyyət və könüllük

***Erkən nigahların bağlaması barədə qərarları ailələrdə kimlər qəbul edir?***

Ailədə qızın nikah bağlaması barədə son qərarı kim qəbul edir? **3 saylı cədvəl** bu suala cavab verir. Bu cədvəldə qızların zorakılıqla qaçırılması yolu ilə bağlandığı 2 nikah nəzərə alınmır.

**Cədvəl 3. Ərə vermək barədə qərarı kim verib?**

| | % |
|---|---|
| Qızın atası | 58 |
| Qızın anası | 8 |
| Qızın özü | 21 |
| Qızın babası/nənəsi | 7 |
| Bütün ailə üzvləri | 6 |
| **Cəmi** | **100** |

**G**öründüyü kimi, araşdırdığımız halların yarısından çoxunda (58%) yetkinlik yaşına çatmamış qızın ərə verilməsi barədə son qərarı onların ataları qəbul etmişdir. Tamamilə təbii sayılmalı olan bu vəziyyət onunla bağlıdır ki, Azərbaycan ailələrinin əksəriyyətində ailə həyatının ən mühüm məsələləri barədə qərar qəbul edilərkən ailə başçısının sözü həlledici sayılır. Bu əlaqə onunla da təsdiq edilir ki, qızların ərə verilməsi barədə qərarın ata tərəfindən qəbul edildiyi halların demək olar ki, hamısında atalar ailənin bütün başqa məsələlərinə dair qərarlar qəbul edilməsində də əsas rol oynayır. Bir sıra hallarda qızın ərə getməsi barədə qərar onun anası və ya babası, yaxud nənəsi tərəfindən qəbul edilsə də belə halların əksəriyyəti bu ailələrdə boşanma və ya qızın atasının vəfat etməsi üzündən olmuşdur.

Eyni zamanda, bu cədvəldən göründüyü kimi, erkən nikah bağlayan qızların özlərinin son qərar qəbul etdiyi hallar da kifayət qədər çoxdur (21%). Lakin nəzərə alınmalıdır ki, belə halların xeyli hissəsində (21 haldan 9-unda) valideynlərin istəyinə zidd olaraq nikah qızın razılığı ilə qaçırılması yolu ilə bağlanmışdır.

***Erkən nikaha məcbur etmə***

Bu mövzu bizim respondentlərin mühakimələrində tez-tez rast gəlinir. Yuxarıda təhlil olunmuş motiv və səbəblərin təsiri valideynləri öz qızlarını tez bir zamanda ərə verməsinə təhrik edir. Bundan əlavə bəzi respondentlər qeyd edirlər ki, əhali arasında belə bir təsəvvür yayılıb ki, əgər qızı elçi gəlibsə bu onun "qismətidir" və belə imkanı əldən vermək olmaz. Buna görə də çox hallarda valideynlər yetkinlik yaşına çatmamış qızlarına elçi gəldiyi zaman etiraz etmirlər, nikah barədə razılığa gəlirlər. Bir qayda olaraq, nikah barədə qərar qəbul edilən zaman valideynlər həlledici instansiya olurlar; çox hallarda, gənclərin özlərinin fikri qəbul edilmir, yaxud da sırf formal olaraq soruşulur. Müvafiq olaraq, belə vəziyyət müxtəlif məcburiyyətlərə səbəb olur.

Erkən nikahları iştirakçıları və onların valideynləri ilə müsahibələri təhlil etdikdə nikaha məcbur etmə halları təsbit olunur. Bu tədqiqat zamanı bizi erkən nikaha daxil olmanın nə dərəcədə qızların öz arzu və müstəqil seçimlərinin nəticəsi olması sualı xüsusi maraqlandırırdı. Buna görə də erkən nikah hallarının təhlili zamanı aydınlaşdırılmağa cəhd edilmişdir ki, bu nikaha daxilolma qızın öz arzusu olubmu, yoxsa valideynlərin, bəzən də başqa şəxslərin təzyiqinin və ya hətta bəzən məcburiyyətinin nəticəsidir.

Tədqiq olunan nikah qurma hallarının əksəriyyəti (60%) qızların özlərinin tamamilə sərbəst seçiminin nəticəsi olmayıb, bu və ya digər formada başqa şəxslər (əsasən valideynlər) tərəfindən məcburiyyət olmasının nəticəsində baş tutub.

Məcburiyyət müxtəlif formalarda və intensivlik dərəcəsində qəbul edilir. Bir halda qızlar etiraz etmirlər və özləri ərə getməyə hazırdırlar. Belə vəziyyətlərdə incə psixoloji "zorakılıq"dan danışmaq lazımdır. Qızlar onlarda mütləq ailə qurmağa və reproduktiv funksiyanı yerinə yetirməyə yönələn ənənəvi patriarxal deyimlərlə müşahidə olunur:

*«Yəni valideynlər qızlarını məhz bu mühitdə böyüdüb tərbiyələndirir, onların beynini elə fikirlə doldurur ki, açıq danışacağam, məktəbi qurtardın-qurtarmadın, ərə getməlisən, vəssalam. Qız doğmalı, ailənin pal-paltarını yumalı, yəni ancaq belə-belə işlərə həyatını həsr etməlidirlər»* (Masallı şəhəri).

*«Məni müəyyən dərəcədə valideynlərim məcbur etdi, amma mən özüm də təkidlə etiraz etmirdim. Yeni həyat mənim üçün maraqlı görünürdü. Elə bilirdim, ərə getmək maraqlı işdir. Valideynlərimin təsiri də çox güclü olmuşdu. Onlar mənim əvəzimə planlar qururdular və mənim beynim artıq ərə getmək ideyası ilə dolmuşdu»* (Lənkəran rayonu, Sütəmurdov kəndi).

Belə tərbiyə olunduqda, təbii ki, əksər qızlar təhsil haqqında deyil, ancaq ərə getmək barədə düşünürlər.

Başqa halda erkən yaşlı qızlar ərə getməyə istəməsə də, valideynin sözündən çıxa bilmədikləri üçün etiraz etmirlər. Belə hallar əslində psixoloji "zorakılığın" digər bir formasının nəticəsidir, çünki bu qızlar uşaqlıqdan böyüklərin, valideynlərin sözünə tam tabe olmaq ruhda tərbiyələndiriliblər. Müvafiq misallar:

*«Məcbur deyəndə ki, döymədilər, söymədilər. Sadəcə dedilər belə iş var, veririk. Məndə bir söz demədim. Mənim etiraz etmək hüququm yox idi, belə böyüdüblər»* (Biləsuvar rayonu, Günəşli kəndi).

*«Bu valideynlərimin seçimi idi. Təzyiq göstərməmişdilər. Yəni atamın qanunu idi. Mən səni bununla evləndirirəm. Bu mütləq olmalıdır. Mən onda uşaq idim, bilmirdim ailə nədir. Atam dedi olmalıdı, mən də icra elədim. Bizə belə tərbiyə veriblər»* (Abşeron rayonu, Xırdalan şəhəri).

*«Xeyr, məni məcbur etmədilər! Yəni, bizdə elə tərbiyə idi ki, valideynin sözündən çıxmırdıq. Misal üçün, dedilər, mən də razılaşdım»* (Salyan şəhəri).

«*Atamızın sözü əsas olub həmişə. Valideynlərim həmişə bizim üçün nəyin pis, nəyin yaxşı olduğunu bizdən daha yaxşı bildiklərini deyiblər. Biz də mübahisə etməmişik onlarla. Atamın qəti qərarı "hə" və yaxud "yox" olubsa, onu heç kəs fikrindən döndərə bilməzdi…. Həyat yoldaşımı mənim üçün valideynlərim seçib. Əslində o, məni seçib. Kollecdə oxuyanda maşınla gəlirmiş məktəbin qarşısına, məni görüb, soraqlaşıb öyrənmişdir ki, kimlərdənəm, hansı ailədənəm, sonra da elçi göndərmişdilər. Atamla anam da razılıq verdilər. Düzdür, məcbur etmədilər məni, amma görürdüm ki, onların xoşuna gəlib oğlanın ailəsi və çox sevinirdilər toyqabağı hazırlıq işlərinə. Mən də razılaşdım*» (Lənkəran şəhəri).

Üçüncü halda valideynlər öz qızlarına onları ərə verməyə məcbur etmək üçün birbaşa təzyiq göstərirlər. Tədqiq olunmuş nikah hallarının 29%-i tamamilə qızların razılığı olmadan baş vermişdir. Bu kimi halların bəzilərində yetkinlik yaşına çatmamış qızlar zorla qaçırılmış, hərçənd, bir çox bu kimi hallarda validenlər öz qızlarını onların istəklərini və müqavimət göstərmələrini nəzərə almadan ərə verirlər. Müvafiq misallar:

*«Valideynlərimin seçimi idi. Məndən soruşdular, mən dedim ki, istəmirəm. Sadəcə anam, babam dedi ki, getməlisən»* (Saatlı rayonu, Yeni Novruzlu kəndi).

*«Məni ərə verəndə fikrimi soruşmadılar. Amma bilirdilər ki, hələ ərə getmək fikrim yoxdur...Hə, məcbur etmək kimi bir şey oldu...Yaşım az olduğu üçün məni məcbur etdilər, indiki yaşım olsa idi, məni məcbur edə bilməzdilər»* (Masallı rayonu, Mahmudavar kəndi).

*«Başqa bir istədiyim var idi. Odur ki, götürüb verdilər buna, mən getmirdim. Zorla, məcbur qaçırıblar. Elə ailə qurmaqdansa heç qurmasan yaxşıdı… Məni qaçırmaqda xalam qızının, bacımın rolu olub. Məni qaçırmaq üçün şərait yaradıblar ki, qaçırsın. Mən getmirdim, ona görə. İndi deyirlər biz peşiman olmuşuq, səhv etmişik, gərək etməyəydik. Biz dedik sən gedib xoşbəxt olasan. O cür düşünüblər, ancaq çox səhv ediblər»* (Abşeron rayonu, Xırdalan şəhəri).

*«Atam vermişdir. Məndən soruşan olmayıb. Atam indi təəssüflənir ki, məni bu dəliyə verib, ancaq boşanmağa icazə vermir. Deyir ayıbdır. Kənddə biabır olarıq. Kənddə qızların seçimi yoxdur, valideynlər kimə verdilər ona da gedirik»* (Bakı şəhəri, Nardaran qəsəbəsi).

*«Məni valideynlərim məcbur etdi. Onlar təkidlə deyirdilər ki, ərə getməlisən, yaxşı oğlan var, mən də razı olmağa məcbur oldum»* (Lənkəran rayonu, Girdəni kəndi).

*«Qızlarımızı ərimlə mən ərə vermişəm. Görmüşəm qapıya gələn adam yaxşıdır, vermişik. Biz verəndən sonra onların ağızları nədir getməsin»* (Bakı şəhəri).

*«Məsələ burasındadır ki, mənim etiraz etmək hüququm yox idi. Etiraz etdimsə də nəticəsi olmadı. Atam məni həmin şəxsə hələ kiçik yaşlarından nişanlamışdı. Mən etiraz etdikdə isə bildirdi ki, əgər razılıq verməsəm məni evdən bayıra buraxmayacaq….Anam məni müdafiə edirdi. Bu barədə evdə söz-söhbətlər də oldu, lakin, nəticəsi olmadı»* (Neftçala rayonu, Kürkəndi).

*«Mənim heç fikrim də yox idi ki, ərə gedim. O zaman mən təhsil almaq, işləmək istəyirdim. Amma anam, qardaşım, qohumlar mənə təzyiq göstərərək məcbur etdilər ki, ailə qurum»* (Bakı şəhəri).

Tədqiq olunmuş nikah halların əksəriyyəti (71%) qızların razılığı ilə baş tutmuşdur. Hesablamalar göstərir ki, nikahların üçdə bir hissəsi (31%) qızın öz sərbəst seçimi ilə olmasa da, yenə də onların razılığı ilə qurulub. Belə razılıqların əksəriyyəti qızların valideynlərinin istək və arzularına qarşı çıxmağa, azad seçim hüquqlarını müdafiə etməyə qabiliyyətləri və ya istəklərinin olmamasının nəticəsidir.

İstənilən variantda qızlara ailədə hüquqları pozulan və müdafiə olunmayan ikinci dərəcəli varlıq kimi baxılması mövcuddur.

***Erkən nikahlar qızların özlərinin qərarı kimi***

Müsahibələrin təhlili göstərir ki, bəzi hallarda erkən nikahları aşıq olmuş və ərə getmək istəyən qızların öz arzularının nəticəsidir. **3 saylı cədvəldən** göründüyü kimi araşdırılmış halların 21%-ində erkən nikahlar qızların özlərinin qərarı və arzusu nəticəsində baş vermişdir (burada bəlkə də valideynlərə onların qızları tərəfindən təzyiq göstərilməsi barədə danışmaq olar). Aşağıdakı misallar bunu təsdiq edir:

*«Oğlanla biri birimizi sevirdik, çox istəyirdik. Qışda nişan etmişdik, yayda mənim toyum olmalı idi. Valideynlərim nə deyəcəkdirlər ki? Oğlan elçilərini göndərmşdir, atam anam da verdi məni. Onlar bilirdilər ki, biz istəyirik bir birimizi»* - 16 yaşında ikən ərə getmiş gənc qadınla müsahibədən (Masallı şəhəri).

*«Uşaq olmuşam, beynim dolub, gözüm ondan başqa heç kəsi görmürdü. Valideynim razı deyildi. O zaman artıq atam rəhmətə getmişdi. Bəzən fikirləşirəm ki, atamla münasibətlərim çox yaxın idi. Bəlkə o belə tez dünyasını dəyişməsəydi, o zaman yanımda olsaydı, o qoymazdı mən belə tez ərə gedim, mənim qaçmağıma yol verməzdi. Mənə düzgün yol göstərərdi. Anam isə qorxurdu, mənə biri-birimizi hələ yaxşı tanımadığımızı deyirdi. Məni heç kəs məcbur etməyib ərə getməyə. Bu yalnız mənim özümün qərarı olub. Oğlan gecə gündüz məhəllədə idi, mənim də beynim dolmuşdu. Anam bir gün Bakıda olanda gizli olaraq evdən çıxdım və oğlana qoşulub qaçdım»* (Lənkəran şəhəri).

*«Bəli, nə biz, nə də oğlanın valideynləri razı deyildik. Oğlanın valideynləri xüsusilə razı deyildilər. Ərim də narazı idi. Mən qızımla söhbət etdim, o, məni eşidəcəyinə söz versə də, sonra oğlanla evləndi»* (Abşeron rayonu, Xırdalan şəhəri).

*«Qızım 10-cu sinifi bitirdikdən sonra sevdiyi oğlanla qaçmışdı. Seçim özünün idi. həyat yoldaşım başqa kəndə qız verməyə etiraz edirdi. Mən el-adəti ilə məktəbi bitirəndən sonra toy edib gəlin köçürməyə razı idim. Qızımın qaçması bizim üçün gözlənilməz oldu. Hər ikimiz xəstəlik keçirtdik. Qızım biləndə ki, atası heç vaxt onu sevdiyi oğlana verməz o zaman onunla qaçdı. Amma bir müddət keçəndən sonra mən bu halla barışdım və qızımı dəstəklədim»* (Saatlı şəhəri).

Müsahibələrin nəticələri göstərir ki, qızların erkən nikahlarının 11%-i onların valideynlərinin qəti razılığı olmadan baş tutmuşdur. Belə halların hamısı qızların zorla oğurlanması və ya könüllü qaçması formasında baş vermişdir.

Bununla bərabər, qeyd etmək lazımdır ki, bəzi hallarda valideynlər öz qızlarının ərə getməsinə fəal müqavimət göstərsələr də son nəticədə ya rədd cavabı verməklə qızlarının taleyinə müdaxilə etmək istəməyib, ya da qızın gələcək əri ilə qaçacağından qorxaraq razılıq verməyə məcbur olmuşlar. Müvafiq misallar:

*«Biz bu ailənin qurulmasına razı deyildik. Oğlanın valideynləri də razı deyildilər. Ərim ümumiyyətlə narazı idi. Buna görə ailədə narazılıq da olmuşdu…Bu bizdən asılı olmadı. Qızın öz seçimi idi. Oğlanla evləndilər. Hətta toy məclisi də keçirilmədi. Sonra valideynləri onları evdən qovdu»* (Bakı şəhəri).

*«Öz qərarım idi. Anamı "Hə" deməyə yalnız mənim təkidim, mənim oğlanı dəlicəsinə sevməyim yola gətirdi. Ona dedim ki, mən bu oğlanla görüşürəm. O da fikirləşib ki, elə qız özünün gəzdiyi oğlanla evlənsə yaxşıdır»* (Lənkəran şəhəri).

## 2.4. Yerli əhalinin erkən nikahlara münasibəti

Respondentlərin əksəriyyəti bu fikirdədir ki, cəmiyyət erkən nikahlara əsasən müsbət, uzaqbaşı neytral münasibət bəsləyir, bunu ailənin şəxsi işi hesab edir. Belə ki, müsahibə respondentlərinə sual verilmişdir ki, qızın erkən yaşda ərə getməsinə onların yaxınları və tanışları necə münasibət bildirmişdir? Bu sualın cavablarının təhlili göstərir ki, respondentlərin yalnız az bir qismi (27%) hesab edir ki, ətrafdakı insanlar bu nikahı pislədilər. Respondentlərin yarısı isə (51%) hesab edir ki, ətrafdakı insanlar bu hadisəni alqışladılar. Respondentlərin beşdə birindən çoxu (22%) onların yaxınları və tanışların buna neytral yanaşmasını qeyd edirlər (bax **4 saylı cədvələ**).

**Cədvəl 4. Başqa insanlar bu nikahı necə qəbul etdi?**

| | % |
|---|---|
| Alqışladılar | 51 |
| Pislədilər | 27 |
| Neytral | 22 |
| **Cəmi** | **100** |

Yaxın və tanış insanların erkən nikahlara münasibəti ilə əlaqədar bu vəziyyət respondentlərin həmin ərazidə əhalinin ümumiyyətlə erkən nikahlara münasibəti barədə suala cavabları ilə də təsdiq edilir. Belə ki, respondentlərin yarısından çoxu (54%) əmindirlər ki, yerli əhali erkən nikahlara müsbət münasibət bəsləyir və yalnız 25% belə hesab edir ki, yerli əhali erkən nikahları pisləyir (bax **5 saylı cədvələ**).

**Cədvəl 5. Yerli əhalinin erkən nikahlara münasibəti**

| | % |
|---|---|
| Müsbət | 54 |
| Mənfi | 25 |
| Neytral | 21 |
| **Cəmi** | **100** |

## 2.5. Erkən nikahların neqativ nəticələri

Bəzi erkən nikahlarının iştirakçıları və ya valideynlər öz və ya övladların nikahlarının neqativ cəhətləri və nəticələri arasında ərə verilən zaman qızların yetkin olmaması, onların ailə həyatına hazır olmaması, sağlamlığın itirilməsi və ruhi sarsıntı hallarını qeyd etmişdirlər.

Lakin daha çox hallarda respondentlər erkən nikahların qızların təhsili və ailənin möhkəmliyi baxımından neqativ nəticələrindən danışırdılar.

### *Erkən nikahlar və qızların təhsili*

Təbii ki, 18 yaşa çatmamış nikah bağlayan qızların əksəriyyətinin nəinki ali və ya orta ixtisas təhsili, heç tam orta təhsili də olmur. Belə qızlar erkən nikah bağlayarkən onların əksər hallarda natamam orta və ya ibtidai təhsili olur. **6 saylı cədvəldə** tədqiq olunmuş erkən nikah hallarında nikaha daxil olduqları zaman qızların təhsil səviyyəsi barədə məlumat verilmişdir.

**Cədvəl 6. Tədqiq olunmuş erkən nikah hallarında nikaha daxil olduqları zaman qızların təhsil səviyyəsi**

| | % |
|---|---|
| İbtidai | 8 |
| Natamam orta | 59 |
| Orta | 31 |
| Orta ixtisas | 2 |
| **Cəmi** | **100** |

Bu cədvəldən göründüyü kimi, əksər hallarda erkən nikah bağlayan qızların natamam orta təhsili olmuşdur (orta məktəbin 7-10-cu sinfi). Düzdür, araşdırdığımız hallarda nikah bağlanan zaman qızların demək olar ki, üçdə bir hissəsinin tam orta təhsili olmuşdur, lakin bu, qızların 16 yaşdan sonra nikah bağladığı hallara aiddir. Bir sıra hallarda (8%) nikah bağlanarkən qızların yalnız ibtidai təhsili olmuşdur (orta məktəbin 6-cı sinfinə qədər).

Bir qayda olaraq, erkən nikahlar bu cür nikah bağlayan qadınların təhsilini davam etdirməsinə mane olur. Aşağıdakı cədvəldə əks etdirilən məlumatlar buna əyani sübutdur.

**Cədvəl 7. Erkən nikah bağlamış qadınlar nikahdan sonra təhsillərini davam etdirmişlərmi?**

| | % |
|---|---|
| Xeyr | 87 |
| Ancaq oxudugları təhsil pilləsini başa çatdırmışlar | 10 |
| Bəli | 3 |
| **Cəmi** | **100** |

Göründüyü kimi, tədqiq etdiyimiz hallarda erkən nikah bağlamış qadınların mütləq əksəriyyəti (87%) ərə gedəndən sonra təhsilini davam etdirməmişdir. Onlardan bəziləri ərə gedənə qədər məktəb təhsilini başa vurmuş, əksəriyyəti isə təhsilini yarımçıq qoymağa məcbur olmuşdur. Respondentlərin söylədiklərindən aydın olur ki, onların təhsili yarımçıq qoymalarının əsas səbəbləri ya ev qayğıları ilə təhsili bir yerdə davam etdirməyin mümkün olmaması, ya da onların təhsilini davam etdirməsinə ərlərinin icazə verməməsi ilə bağlı olmuşdur. Aşağıdakı əhvalatlar bu deyilənləri yaxşı illüstrasiya edir:

*«Səkkizinci sinifi qurtarıb bir il evdə qalmışam, nişanlayıblar, oxumaq arzusunda olmuşam. Nişanlananda şərt qoymuşam mən gec-tez oxuyacam. Toyum olub 16 yaşımda. Evlənəndən sonra ərim oxumağa icazə vermədi»* (Neftçala şəhəri).

*«10 sinif oxumuşam. 11-ci sinifdə davamiyyətim heç olmayıb. Sevirdim o vaxt, oğlanla görüşürdüm, yəni indiki ərimlə. O qonşuluqda yaşayırdı. Mənim dalımca gəlirdi məktəbə. Amma indi çox peşimanam, təhsil almaq istəyərdim, amma indi buna nə maddi imkanım çatır, nə də yoldaşım icazə verir. Həm də uşaqlarım var indi, onların qulluğunu tutmalıyam, bu da öz növbəsində mənim oxumağıma yol vermir»* (Lənkəran şəhəri).

*«9 il oxumuşam orta məktəbdə. Daha sonra 10-cü sinifə getməyə başladım. Bu zaman ailə həyatı qurdum, oxumağımı yarımçıq qoydum. Çünki yoldaşım nə oxumağa, nə işləməyə icazə vermədi. Amma indi deyir ki, ola bilsin, gələcəkdə dükan açdı, orada işləyəcəyimi vəd edir. Deyir ki, indi hələ işləmək lazım deyil. Evdə onsuz da işin az deyil, işləyirsən kifayət qədər, bu elə sənə bəsdir»* (Masallı şəhəri).

*«Mən hələ texnikumda birinci kursda oxuyurdum biz ailə quranda. Nişanlım oxumağıma etiraz etdi, məni kollecdən çıxarmaq qərarına gəlmişdi. Mən də razılaşdım, əlacım yox idi. Mən onun sözünə qulaq asırdım. 3-4 ay nişanlı qaldıq, sonra toyumuz oldu»* (Sabirabad şəhəri).

*«Qayınatam məni oxutdurmaq istəyirdi. Deyirdi bir məktəbə verək oxusun. Bir texnikuma qoyaq. Ona da yoldaşım razı olmadı»* (Bakı şəhəri).

*«7-yə qədər oxudum. Sonra qoymadılar oxumağa. Nişanlanandan sonra qoymadılar. Amma qəşəng oxuyurdum. Nişanlım qoymadı ...Nişanlanandan sonra qaynanam bizə gəldi, dedi ki istəmir oxusun, məktəbə getsin. Mən düzdü yenə də gedirdim. Deyirdim nə biləcək. Hazırlığa da gedirdim. Biologiyaya həvəsim var idi, müəlliməliyə. Sadəcə qoymadılar. Xəyallarım puç oldu»* (Saatlı rayonu, Yeni Novruzlu kəndi).

Əksər hallarda gənc qadınların təhsili hələ orta məktəbdə yarımçıq qalmış, bəzi hallarda isə bu, orta ixtisas təhsil mərhələsində baş vermişdir.

Tədqiq etdiyimiz 100 haldan yalnız 3-ündə erkən nikah bağlamış gənc qadınlar böyük çətinliklər bahasına da olsa, məktəbdən sonrakı təhsilə başlamağa və təhsilini başa vurmağa nail olmuşlar. Onu da qeyd edək ki, həmin qadınların biri bunu yalnız boşandıqdan sonra edə bilmişdir.

Beləliklə, erkən nikahlar fenomeni bu cür nikah bağlayan qadınların təhsilinə və buna müvafiq olaraq, gələcəkdə onların işə düzəlməsinə və karyera irəliləyişinə çox neqativ təsir göstərir.

### *Erkən nikahların davamlılığı*

Erkən nikahların xeyli hissəsi çox davam etmir və boşanma ilə başa çatır. Özü də bir sıra hallarda boşanmalar rəsmən qeydiyyata alınmır, çünki gəlinlər yetkinlik yaşına çatmamış olduğuna görə bu cür nikahların özləri rəsmən qeydiyyata alınmır. Aşağıdakı cədvəldən göründüyü kimi, əksər hallarda (78%) ər-arvad birgə nikahda yaşamağı davam etdirsələr də, tədqiq etdiyimiz erkən nikahların 21%-i boşanma ilə başa çatmışdır.

**Cədvəl 8. Qadın həmin şəxs ilə birgə nikahda yaşamağı davam edirmi?**

| | **%** |
|---|---|
| Bəli | 78 |
| Boşanıb | 21 |
| Əri vəfat edib | 1 |
| **Cəmi** | **100** |

Araşdırılmış hallarda boşanmaların ən çox rast gələn səbəb ərin qohumları və ərin özü tərəfindən gəlinə hörmətsiz, çox vaxt qəddar münasibət olmuşdur. Müvafiq nümunələrə nəzər salaq:

*«Boşanmanın əsas səbəbi mənə işgəncə verirdi. Məni döyürdü...Mən boşandım ondan. Çünki mənə gün işığı vermirdi. Mən ölü kimi gəlmişdim kəndə. Mənim başıma oyun açırdı. Axırda məni qumara qoydu.* (Masallı rayonu, Mahmudavar kəndi).

*«15 yaşım var idi, məni zorla qaçırıb...Molla kəbin kəsmişdi, ağsaqqal adam idi. Məndən heç nə soruşmadı. Əlimə bir kağız verdilər, dedilər qol çək...Gedəndən sonra heç bir il oturmadım. Orada mən çox pis yaşadım, zülümlə qarşılaşdım. O dünyanı gördüm. Orada mən ailə qayğısı görməmişəm, hörmət görməmişəm.Mənim yoldaşım çəkən idi, içən idi, axmaq adam idi. Çox pis şeylərə rastlaşdım...Bütün pisliklər mənə yoldaşım və onun anası tərəfdən olunurdu. Dəfələrlə döyülmüşəm, üzüm göm-göy olubdu...»* (Ağstafa şəhəri).

*«Məni 15 yaşımda qaçırıb və mən onun evində yaşamağa başlamışam. Kəbin kəsdirmişik, toyumuz olmayıb. Rəsmi nikahımız yoxdur... Rəsmi nigahımız olmadığından rəsmi qaydada boşanmamışıq. Amma ayrı yaşayırıq. Ümumiyyətlə, bir neçə dəfə ayrılmışıq. Ilk dəfə bu evləndikdən bir il sonra oldu. Mən evdə çox əzablar çəkirdim. Təzə gəlin idim. Çox şeyi bilmir, çox şeyi bacarmırdım. Yoldaşımın ailəsi mənim başıma müsibətlər gətirib. Onun qoca anası bacıları ilə bir yerdə məni qul kimi işlədir, işlərin öhdəsindən gələ bilmədikdə isə məni hətta döyüblər. Çox pis döyürdülər. Xüsusən başımdan. Bir dəfə də mən dözməyib qayınanama cavab qaytaranda yoldaşım bir şillə mənə vurdu. Mən də bu barədə anam gilə nənəmə məlumat verdim...Ondan sonra mən atamın evinə köçmüşdüm. Ərim hərdən gəlirdi mənimlə qalırdı. Bəzən isə anasının evində gecələyirdi. Məni sevdiyini deyirdi...Bir gün də öyrəndim ki, ərim yaşlı bir qadınla kəbin kəsdirib və onunla anası gildə yaşayır və bu səbəbdən də mənim yanımda mütəmadi olmur. Beləcə. Hər ikimizlə yaşayırdı. Bir neçə gün mənim yanımda gecələyirdi, bir neçə gün onun. Amma mənə deyirdi ki, gecə qaraulunda işləyir. Mən də ona inanırdım... Əlaqə saxlamırıq heç biri-birimizlə»* (Lənkəran şəhəri).

*"Dediyim kimi, mən sevmədiyim adamla ailə qurmuşdum. Birgə yaşadığımız 11 ildə çox zorakılıqlara, təhqirlərə dözmüşəm. Uşaqlarımla normal həyat görmədim. Anasının sözü ilə oturub duran, onun diktəsi ilə hərəkət edən ərim bir dəfə də olsun ailəsinə qayğı göstərmədi, uşaqlarına atalıq sevgisi hiss etdirmədi. Bunlara rəğmən mən yoldaşım, qaynanam-qayınatam üçün pis olmadım. Amma xüsusi qaynana tərəfindən təhqirlərə məruz qalmağım mənə pis təsir edirdi. Hər vaxt "evi boşalt, qızılları gətir" kimi hədələri məni bezdirdi. Məcbur oldum evdən getdim. Boşandıqdan sonra anamın evinə gəldim və hazırda da anamla yaşayıram.... Bu çox böyük dərddir. 15 ildir ki uşaqlar mənimlə yaşamır. Uşaqlardan ayrı olmağım mənim üçün çox ağırdır. Ərim çox təzyiq göstərdi. Uşaqları zorla əlimdən aldılar... Bundan sonra mən intihar etmək istədim. 3 dəfə özümü öldürməyə cəhd etmişəm. Uşaqlarımı itirməyimlə barışa bilmirdim"* (Bakı şəhəri).

Tədqiq edilmiş hallarda çox vaxt boşanmalara səbəb ərlərin narkotik maddələrə meyl etməsi olmuşdur. Bir neçə nümunə:

*«Bu hadisə 3 il bundan əvvəl olub. Ondan əvvəl valideynlərim məni də, uşağımı da gizlədirdı. İstəmirdilər ki, uşağım atasının kim olduğunu bilsin. Ərim narkoman olub»* (Bakı şəhəri).

*«Rəsmi boşanma 3 il bundan qabaq olmuşdu. Baxmayaraq ki, qızım 4 il birqə yaşayandan sonra biz onu qaytardıq evimizə. Uşağı 3 yaşında idi. Biz məcbur idik onu qaytaraq. Çünki oğlan narkotik maddə qəbul edirdi. Bundan da həm uşaq, həm də qız çox qorxurdu. Təsəvvür edin ki, 16 yaşında qız körpə uşağı ilə narkoman bir insanla bir evdə yaşayırdı. Əvvəllər qız bunu bizdən gizlədirdi, çünki atası ona belə bir xeyir-dua vermişdi: "Sən ağ paltarda o evə gedirsən, ağ paltarda da çıxmalısan o evdən». Yəni kəfəndə. Qız da susub dözürdü. Bizə heç nə demirdi. Axırda oğlanlarım açdı məsələnin üstünü»* (Abşeron rayonu, Xırdalan şəhəri).

16 yaşında ərə verilmiş qadının dedikləri: *"Açığı, mən onu şevməmişəm, elə birinci gündən, nəsə ürəyimdən olmadı, gəlbimə yatmadı. Çox pis ailəyə düşdüm. Oğlan, sən demə, narkoman idi. Məni incitdi, eddəkilər də məni döyürdülər, onların dediyi kimi durmayanda. Mən daxa dözə bilmədim, uşağım olan kimi, qayıtdım ata evimizə. Uşağımı mənə vermək istəmirdilər. Ancaq onlar görəndə ki, oğlum xəstə doğulub, ondan sonra razı oldular- götür apar. Belə. Təşəbbüskar mən olmuşam. Səbəbi o olub ki, mənə əsl ər olmayıb. Narkoman olan admdan nə gözləmək olar"* (Bakı şəhəri, Pirşağa qəsəbəsi).

Nəhayət, elə hallar da rast gəlinir ki, ər ikinci arvadı olduğuna görə, yaxud başqa qadınla birləşmək üçün ailəsini tərk edir. Müvafiq nümunələr:

*«Rəsmi nugahımız olmadğından rəsmi qaydada boşanmamışıq. Amma ayrı yaşayırıq. Ayrıldıqdan sonra atamın evində qalıram, uşağım öz yanımdadır. Ərimin qazancı heç bizə gəlib çıxmır. Atamın və anamın himayəsində oluruq. O, demək olar ki, qızımızın tərbiyyəsində heç iştirak etmir. Russiayadadır, deyilənə görə, orada bir arvadı da var»* (Masallı şəhəri).

*«Son zamanlar içkiyə qurşanmışdı və evdə dava-dalaş salırdı. Mən də boşanmaq istəyirdim, lakin, ayrılmağa qərarı ərim verdi. Çünki o, başqa bir qadınla ailə qurmağa hazırlaşırdı. Buna görə də mən həmin evdə qalmaq istəmədim. Yəni boşanmaq təşəbbüsü keçmiş həyat yoldaşım tərəfindən oldu. Məhkəməyə verdiyi ərizədə məni günahlandıraraq, onunla yola getmədiyimi, evdə dava-dalaş saldığımı yazmışdı. Yəni məni günahlandırırdı…Hazırda 2 uşağımla anamın evində, anam, qardaşım və bacımla bir yerdə yaşayıram. Şəraitimiz artıq əvvəlki kimi yaxşı deyil. Belə ki, artıq atam yoxdur və evə qazanc əvvəlkindən az gəlir»* (Bakı şəhəri, Nardaran qəsəbəsi).

Qeyd etmək lazımdır ki, bir sıra hallarda yetkinlik yaşına çatmamış qızlar ərə getdikdən sonra hətta nikahda qalmaqda davam etsələr də öz ailə həyatından narazıdırlar. Bu cür vəziyyət tədqiq edilmiş erkən nikahların 14%-ində müşahidə olunmuşdur. Müvafiq nümunələr:

*"Bəxtimdəm, taleyimdən narazıyam. Bəlkə də, həyatda ən bədbəxt insanam. Ailə həyatım odur ki, gündüz gedib qapılarda hamballıq edirəm. Gecə də gəlib iki şikəst uşağıma, qoca qaynanama və bir də ərimə qulluq edirəm. Nə danışım. Bədbəxt olmuşam. İndiki ağlım olsa belə etməzdim"* (Ağstafa şəhəri).

*"O gədər də razı deyiləm. Evlilik həyatımı başqa cür təsəvvür edirdim. Ərimi çox vaxt görmürəm. Onun valideynləri çox tələbkardırlar mənə qarşı. Ərim tez-tez Russiyaya gedir. Buralara yayda gəlir. Valideynləri ilə bir yerdə yaşayırıq. Onların mənə münasibəti pis deyil. Ançaq çox iştədirlər məni"* (Lənkəran rayonu, Girdəni kəndi).

*"Razıyam da, razı deyiləm də. Belə razıyam ki, bizi, evini-eşiyini nətəri lazımdı pulla təmin edir, amma bir yerdə deyilik da. Mən ərimi sevirəm, amma xoşbəxtliyim elə bil ki yoxdur, çünki ayrıyam. Yəni gəlir-gedir, hər dəfə o gedəndə elə bilirəm ki, ömrümdən nə qədər illər keçir. Çətindir bu vəziyyət mənə. Çox çətin bir vəziyyətdəyəm"* (Masallı şəhəri).

*"Hə. Təəssüflənirəm. Çox. Səbəb, kaşki əvvəldən getməzdim. O səhvi tutmazdım. Sırf yoldaşımın rəhmətə getməyinə görə demirəm. O Allahın qismətidir. Sadəcə yaşayışım, o yaşda getməyim, çox çətinliklər çəkməyim..... ona görə heyifslənirəm. Fikirləşirəm ki, hansı günümə deyim ki xoşbəxt olmuşam? Bir gün tapa bilmirəm ki deyim ki, o günü xoşbəxt olmuşam"* (Sabirabad şəhəri).

## III. ƏSAS NƏTİCƏLƏR

Sorğu məlumatlarının təhlili bizə aşağıdakı nəticələri çıxarmağa imkan verir:

1. Erkən nikahları barədə dəqiq statistik məlumatların olmaması bu hadisənin yayılma dərəcəsinin dəqiq qiymətləndirməsini çətinləşdirir. Lakin bizim əlimizdə olan məlumatlar belə deməyə əsas verir ki, erkən nikahlar praktikası kifayət qədər geniş yayılmışdır.

2. Sorğuda iştirak edən əksər respondentlərin sözlərinə əsaslanaraq belə nəticə çıxarmaq olar ki, son illərdə erkən nikahların sayı azalmışdır.

3. Erkən nikahlar hadisəsinin əsasını müxtəlif mənşəli və müxtəlif dərəcədə əhəmiyyətli olan səbəblərin bütöv bir kompleksi təşkil edir. Əgər bu səbəbləri bir qədər ümumiləşdirsək, onları iki əsas kateqoriyaya aid etmək olar: mədəni-psixoloji və sosial-iqtisadi səbəblər. Birinci növ səbəbləri milli mədəniyyət, psixologiya, mentalitet, ənənəvi stereotiplər, adətlər və bu kimi amillər təşkil edir. Belə ki, valideynlərin erkən yaşlı qızlarını ərə verilməsinin motivləri müzakirə edilərkən bu amillər öz əksini tapmışdır: qızın gələcəyi üçün nigaranlıq (*"Valideynlər qorxurlar ki, onların qızları ərə getməyib evdə qalarlar");* adət və ənənələrə riayət edilməsi; qızın "korlana" biləcəyindən, özünü "ləkələməsindən" qorxusu. İkinci növ səbəbləri isə ailələrin iqdisadi və ya sosial vəziyyəti, müəyyən ərazilər üçün səciyyəvi olan

demoqrafik şərait (əmək miqrasiyası səbəbindən kişilərin nisbətən az olması) təşkil edir.

4. Erkən nikahlar müəyyən dərəcədə sosial-iqtisadi səbəblərin törəməsi olsa da, məhz mədəni-psixoloji amillər Azərbaycanda erkən nikahların yayılmasında həlledici rol oynayır. Valideynlərin öz yetkinlik yaşına çatmamış qızlarını ərə verməsinin motivi kimi qeyd etdikləri səbəblərin təhlili birmənalı şəkildə göstərir ki, əksər hallarda valideynlər ya qadın səadəti haqqında ənənəvi təsəvvürləri rəhbər tutur, ya da Azərbaycanda çoxdan mövcud olan qızın erkən yaşda ərə verilməsi ənənəsinə istinad edirlər.

5. Beləliklə, Azərbaycanda erkən nikahların mövcud olmasının əsas səbəbi azərbaycanlıların mədəni-tarixi xüsusiyyətləri, onların dəyərlər sistemi və psixologiyası ilə bağlıdır. Burada ilk növbədə ondan söhbət gedir ki, Azərbaycanda ənənəvi ailə və nikah təsisatının səciyyəvi cəhəti "düzülüb-qoşulan", yəni valideynlərin öz uşaqları üçün təşkil etdikləri nikahlardır. Bu halda qızlar üçün nikah məsələlərində son qərar qəbul edən əsas instansiya məhz valideynlərdir.

6. Erkən nikah hallarının əksəriyyəti qızların özlərinin tamamilə sərbəst seçiminin nəticəsi yox, bu və ya digər formada başqa şəxslər (əsasən valideynlər) tərəfindən məcburiyyət olmasının nəticəsində baş tutur. Məcburiyyət çox vaxt valideynlərə "qulaq asmalı" nəzərdə tutan ənənəvi tərbiyənin özünün xarakterindən irəli gəlir və daha incə formada mövcud olur. Əgər qızın valideynləri onu ərə vermək qərarına gəlmişdirsə, qızların valideynlərinə etiraz etməsi çətindir.

7. Bəzi hallarda erkən nikahlar aşıq olmuş və ərə getmək istəyən qızların öz arzularının nəticəsidir. Müsahibələrin nəticələri göstərir ki, qızların erkən nikahlarının müəyyən hissəsi onların valideynlərinin qəti razılığı olmadan baş tutur. Belə halların hamısı qızların zorla oğurlanması və ya könüllü qaçması formasında baş verir. Bəzi hallarda isə valideynlər qızlarının erkən yaşda nikah bağlamasının əleyhinə olsalar da, ya rədd cavabı verməklə qızının taleyinə müdaxilə etmək istəməməsini, ya da qızın gələcək əri ilə qaçacağından ehtiyat etməsini nəzərə alaraq razılıq verməyə məcbur olurlar.

8. Sovet dövründə, yəni 1991-ci ilin axırına qədər erkən nikah hallarında valideynlərin motivlərini həmin dövrdən sonra bağlanmış nikahlarla müqayisə etdikdə bu qənaətə gəlmək olar ki, ölkəmizdə sosial transformasiya dövründə yetkinlik yaşına çatmamış qızların ərə verilməsinin motivasiyasında ciddi dəyişiklər olmuşdur. Postsovet dövründə valideynlərin öz qızlarını erkən yaşda ərə verərkən iqtisadi mülahizələrə üstünlük verməsi halları kifayət qədər geniş yayılmışdır. Buna müvafiq olaraq mədəni-tarixi ənənələrə riayət etmək istəyi nəzərəçarpacaq dərəcədə zəifləmişdir.

9. Apardığımız təhlil göstərir ki, valideyn ailəsinin bəzi sosial xarakteristikaları: maddi vəziyyəti, valideynlərin təhsil səviyyəsi və ailənin dindarlıq səviyyəsi yetkinlik yaşına çatmamış qızların ərə verilməsində valideynlərin motivlərinin xarakterinə əhəmiyyətli təsir göstərir. Bu amillərdən valideyn ailəsinin maddi vəziyyəti daha

güclü təsirə malikdir. “İqtisadi problemlər” motivi əsasən maddi vəziyyəti pis olan ailələrdə göstərilir, maddi vəziyyəti orta və ya yüksək səviyyədə olan ailələrdə bu motivə çox nadir hallarda istinad edilir.

“Ənənələrə riayət etmək” motivi təhsil səviyyəsi ümumi orta təhsildən yuxarı, yəni orta ixtisas və ali təhsilli valideynlər arasında çox nadir hallarda rast gəlir. Orta və daha aşağı təhsilli valideynlərlə müqayisədə onlar öz qızlarının gələcəyini təmin etmək arsuzuna daha çox üstünlük verirlər.

Nəhayət, daha dindar ailələrdə valideynlər “ənənələrə riayət etməyə” daha çox meyilli olur və əksinə ailədə dindarlıq nə qədər zəifdirsə belə ailələrdə yetkinlik yaşına çatmamış qızların ərə verilməsində iqtisadi problemlər və qızın istəyi kimi motivlər bir o qədər güclü rol oynayır.

10. Respondentlərin əksəriyyəti bu fikirdədir ki, cəmiyyət erkən nikahlara əsasən müsbət, uzaqbaşı neytral münasibət bəsləyir, bunu ailənin şəxsi işi hesab edir. Belə ki, respondentlərin yalnız az bir qismi hesab edir ki, ətrafdakı insanlar onların və ya övladların nikahını pisləyirlər. Bununla bərabər, respondentlərin əksəriyyəti əmindirlər ki, yerli əhali erkən nikahlara müsbət və ya neytral münasibət bəsləyir. Bu o deməkdir ki, cəmiyyətimizin ictimai rəyində erkən nikahlara qarşı birmənalı mənfi münasibət hələ də tam formalaşmayıb.

11. Respondentlər qızların ərə verilən zaman yetkin olmaması, onların ailə həyatına hazır olmaması, sağlamlığın itirilməsi və ruhi sarsıntı kimi erkən nikahların neqativ cəhətlərini və nəticələrini qeyd etsələr də, daha çox hallarda bu nikahların qızların təhsili və ailənin möhkəmliyi baxımından neqativ nəticələrindən danışırdılar.

12. Erkən yaşda nikah bağlayan qızların əksər hallarda natamam orta və ya ibtidai təhsili olur. Üstəlik də bir qayda olaraq, erkən nikahlar bu cür nikah bağlayan qadınların təhsilini davam etdirməsinə mane olur. Erkən nikah bağlamış qadınların mütləq əksəriyyəti ərə gedəndən sonra təhsilini davam etdirmirlər. Onlardan bəziləri ərə gedənə qədər məktəb təhsilini tamamlasa da, əksəriyyəti təhsilini yarımçıq qoymağa məcbur olur. Bunun əsas səbəbləri ya ev qayğıları ilə təhsili bir yerdə davam etdirməyin mümkün olmaması, ya da onların təhsilini davam etdirməsinə ərlərinin icazə verməməsidir. Beləliklə, erkən nikahlar fenomeni bu cür nikah bağlayan qadınların təhsilinə və buna müvafiq olaraq, gələcəkdə onların işə düzəlməsinə və karyera irəliləyişinə çox neqativ təsir göstərir.

13. Erkən nikahların xeyli hissəsi çox davam etmir və boşanma ilə başa çatır. Özü də bir sıra hallarda boşanmalar rəsmən qeydiyyata alınmır, çünki gəlinlər yetkinlik yaşına çatmamış olduğuna görə bu cür nikahların özləri rəsmən qeydiyyata alınmır. Boşanmaların ən çox rast gələn səbəbi ərin qohumları və ərin özü tərəfindən gəlinə hörmətsiz, çox vaxt qəddar münasibətin göstərilməsidir. Çox vaxt boşanmalara səbəb ərlərin narkotik maddələrə meyl etməsi və ya onların ikinci arvadı olduğuna görə, yaxud başqa qadınla birləşmək üçün ailəsini tərk etməsi olur. Bir sıra hallarda yetkinlik yaşına çatmamış qızlar ərə getdikdən sonra hətta nikahda qalmaqda davam etsələr də öz ailə həyatından narazı olurlar.

## ƏLAVƏ. Erkən nikahların iştirakçıları olan qızların validеyn ailələrinin sоsial-dеmоqrafik хaraktеristikası

Dərinləşmiş müsahibə vasitəsilə əldə olunmuş 100 erkən nikah halları rayon və şəhərlər üzrə aşağıdakı şəkildə paylanmışdır:

**Cədvəl 10. Rayon/şəhər**

| | % |
|---|---|
| Bakı şəhəri | 14 |
| Gəncə şəhəri | 2 |
| Lənkəran rayonu | 15 |
| Salyan rayonu | 11 |
| Sabirabad rayonu | 10 |
| Masallı rayonu | 9 |
| Abşeron rayonu | 9 |
| Ağstafa rayonu | 6 |
| Göyçay rayonu | 5 |
| Neftçala rayonu | 5 |
| Biləsuvar rayonu | 5 |
| Quba rayonu | 4 |
| Saatlı rayonu | 3 |
| Qusar rayonu | 2 |
| **Cəmi** | **100** |

Tədqiq olunan erkən nikaha daxil olan qadınların valideyn ailələri yaşadığı məntəqəsinin tipləri üzrə aşağıdakı qaydada paylanmışdır:

**Cədvəl 11. Yaşayış məntəqəsinin tipi**

| | % |
|---|---|
| Şəhər | 36 |
| Kənd | 30 |
| Qəsəbə | 34 |
| **Cəmi** | **100** |

**12 saylı cədvəl** tədqiq olunan erkən nikaha daxil olan qadınların valideynlərinin təhsil səviyyəsini göstərir:

**Cədvəl 12. Ananın və atanın təhsili**

| | **Ananın təhsili (%)** | **Atanın təhsili (%)** |
|---|---|---|
| Natamam orta və ya ibtidai | 18 | 12 |
| Orta | 68 | 59 |
| Orta ixtisas | 6 | 10 |
| Ali | 8 | 19 |
| **Cəmi** | **100** | **100** |

**13 saylı cədvəl** qadınların erkən nikaha daxil olduqları zaman valideyn ailələrinin iqtisadi vəziyyətini nümayiş etdirir:

**Cədvəl 13. Qızın valideyn ailələsinin maddi vəziyyəti**

| | **%** |
|---|---|
| Pis | 28 |
| Orta | 55 |
| Yaxşı | 17 |
| **Cəmi** | **100** |

**14 saylı cədvəl** tədqiq olunan erkən nikah hallarında nikaha daxil olduqları zaman qızların yaş həddinin bölgüsünü göstərir.

**Cədvəl 14. Tədqiq olunmuş erkən nikah hallarında nikaha daxil olduqları zaman qızların yaş həddi üzrə bölgüsü**

| | **%** |
|---|---|
| 14 yaş | 4 |
| 15 yaş | 12 |
| 16 yaş | 51 |
| 17 yaş | 33 |
| **Cəmi** | **100** |